

Vaqif NƏSİB

# ÜÇ ÖMRÜN BOĞANAĞI

Tale, əlindən xəta çıxartdırıb ləzgi Məhəmmədi odlara salmışdı. Həmin atəş də qürbətin və dəmirçi kürəsinin boğanağından ibarət olmuşdu.

Düzdü, dəmirçi kürəsində özü də döyülə-döyülə yeni adama çevrilə bilmişdi. Yəni ərintiyə çevrilə biləndən sonra yeni bəndə kimi, yeni dünyasına alışmışdı. Körüyünün al-qırmızı mayeyə döndərdiyi ərinti içində ləzgi Məhəmməd boğulmuş, əskiparalı Meçəl oğlu Qədəmşah doğulmuşdu. O da iyirmi beş illik ömrünü əridib, özündən, öz kürəsində döyə-döyə (həm də döyülə-döyülə) yeni bəndə düzəldib bir ömürdə ikinci ömrünü yaşamağa başlamışdı.

...Rüstəməli deyilən adam uşaqlığından evlərindəki xalını və üstdəki tüfəngi görmüşdü. Xalının nənəsi Balaxanımın (iri cüssəli olduğundan ağzıgöyçəklər rəhmətliyə at Balaxanım deyirmişlər) əl işi, qoşalülənin rəhmətlik babası Ceyran Əlinin ov tüfəngi olduğunu öyrənmişdi. Onu da eşitmişdi ki, nənəsi sevimli nəvəsini adının qabağındakı atla deyil, həmin sehrli xalısı ilə murazına çatdırmaq istəmişdi. (Yəni Rüstəməli həmin xalı ilə uçub uca-uca zirvələri fəth edib, onun gorunu nurlandıracaq, ruhunu şadlandıracaqdı). Babası tüfəngi barədə nəsihətini və vəsiyyətini qoşalülənin iki gözündən atəşləməli olmuşdu.

– Baba yadigarı kimi saxla, qurda-quşa əl qaldırma. Onların qarğışı babanı əvvəl atından, sonra da həyatından saldı. Gördün, özü səni dingildədir, əlin dinc durmayanda özünü qaşqa talaya verib, dağların qaşqasından aşağılara enmiş qışı yaylım atəşinlə salamla.

Əlinin dinc durmaması da Rüstəməliyə baha başa gəlmişdi. Onuncuda oxuyanda xətasıyla qardaşlığı ilə vidalaşmalı olmuş, bir ömürlük bir barıt qoxusu və tüstüsünün boğanağına düşmüşdü.

...İbad yazıq öz boğanağını cəza kimi nəyə görə aldığını ömrü boyu başa düşməmişdi. Heç həyatda canlı başdaşı kimi qalmış dostu Sədulla da ha baş sındırmışdısa, bunu düstursuz dünyalarının bir qanununun içinə sığışdıra bilməmişdi. Həmin boğanağın dostunu kiminləsə səhv saldığını düşünmüşdü.

## KÜRƏ

Bəşər yarandığı gündən Tanrının dövrələrinə çəkdiyi bir dairənin, – Yer Kürəsinin içində ömrünü sürməyindədir. Hər zaman insanlar arasında özlərini Kürə içərisində kürəyə salanlar da tapılmışdı. Onlardan biri də Ceyrançölün Əskipara kəndinin bəxtinə düşmüşdü. Ləzgi Məhəmməd deyilən adam əlindən xəta çıxandan sonra obaları Sudurdan baş götürüb qaçmışdı. Əvvəl-əvvəl özünü Samur çayı sahilindəki sarp qayalardan atmaq istəmişdi. Düşmən əlində boğazlanmaqdansa Samur sularında boğulmağa üstünlük vermişdi. Çölün və çayın mehiylə soyuyub özünə gələndən sonra yavaş-yavaş cavan və şirin canına qıymaqdan vaz keçməyə başlamışdı. Üstəlik, özündən əvvəl əli qana batanların doğma yerlərdən baş götürüb qaçdıqlarını xatırlamışdı. Sonra sığına biləcəyi yer-yurd barədə fikirləşməyə başlamışdı. Çox baş sındırdıqdan sonra (həmin müddət gözləri gah Şimala, gah da Cənuba dikilirdi) yolunu Rusiyaya deyil, Azərbaycana salmağı qərarlaşdırmışdı. Üzünü Azərbaycan tərəfə tutandasa ilk yadına düşən əsgərlik yoldaşı Xaliddin olmuşdu. Və onların kəndinin adını xatırlamağa çalışmışdı. Güc-bəla ilə olsa da yadına sala bilmişdi, - Əskipara.

Axşam qəribliklərinin birində həmin başı bəlalı qərib sənədsiz və səhhətsiz vəziyyətdə Ceyrançölün mərkəzindən Qazançı dağına tərəf xeyli yol keçib, Əskipara dəyirmanının qənşərinə yetişə bilmişdi. Dəyirmandan əl-ayaq çəkilməsini bir xeyli gözləməli olmuşdu. Axır ki, üst-başının təşvişini çırpıb, kirpiyinə kimi una batmış dəyirmançıya yaxınlaşmışdı. Azərbaycan dilini ucundan-qulağından bildiyindən sözlərini üyütməyə çalışmışdı.

– Salam-əleyküm, can qardaşım.

– Can qardaşım ləzgiliyinin xəbərini verir, elədirmi?

– Sudur ləzgisiyəm.

– Hə, ləzgisənsə, onda ya dəmirçi olacaqsan, ya da dişsalan.

– Dəmirçiliyim bir az var.

– Onda elə bil ki, buğdan üyünüb, unun xamırlanıb, acıyıb, saca qoymağı qalıb. Bu dərənin iki Əskiparası Daşsalahlıdan dəmirçi Ziyadxanı şenliyə gətirə bilmir. Yanına getməkdən də neçə çarıq, patava yırtmalı olurlar. Bizim dərədə dəmirçinin çörəyi hazırdır.

– Mən əvvəl-əvvəl əsgərlik yoldaşım Xaliddini tapmaq istəyirəm.

– Hansı Əskiparadandır, aşağıdan, ya yuxarıdan? Hər ikisində bir-iki Xaliddin var...

Burda ləzgi Məhəmməd çətinə düşməli olmuşdu. Dilinə dəhnəsindən əvəzi söz gətirə bilməmişdi. Dəyirmançı söz dəyirmanını xarab qoyduğu qəribin özü köməyinə yetişmək istəmişdi.

– Əsgərlikdə nə sənətə yiyələnmək istəyirdi? Bəlkə, peşəsindən əlimizə sijim ucu keçdi.

– Komandirin maşınını sürürdü.

– Ayə, yuxarıya gedəsi olmayacaqsan. Dostun bizim kənddən çıxır. Sədrimiz Nəsibin şoferi Xaliddin olacaq.

– Onu necə tapa bilərəm?

– Bu gün çətin. Bayaq quru dərəni keçib, mərkəzə yol aldılar. Nəsibi iclasa çağırıblar.

Dodağı qurumuş oğlanın dəhnəsinə yenə su buraxmalı oldu:

– Bu gün dəyirmanda mənimlə qalası olacaqsan. Çörək kəsib əməllicə tanış olacağıq. Ləzgilər də bizim ayrımlar kimi boğazlarını yaşlamamış iştahlarını aça bilmirlər. Bir zoğal arağını da ikimiz hortdadarıq. Axır ki, bu gün sən də dəyirmançı dursan, sabah da Xaliddini haraylarıq.

Dəyirmançı Mustafəli sədr Nəsibin maşınının dəyirman bərabərində yolunu kəsib Xaliddini muştuluqladı:

– Aparıb Nəsib qağanı düşürüb bəri gəl. Əsgərlik yoldaşın səni deyib yolunu dərəmizə salıb.

Xaliddin həmin dəqiqə əsgərlik yoldaşını tanıya bilməyib, şübhəsindən varlığına kölgə salmalı olmuşdu. Həmin an ləzgi Məhəmmədə sözləriylə özünü bir dağın quzeyindən güneyinə verməyə hazırlaşdı.

– Səninlə ruslara ləzginka oynadan Moqamedikəm...

Həmin sözlər Xaliddinin yaddaşından Coğazın suyundan axıda bildi.

– Ayə, yadımda nataraz, ayıb da olmasın, ləzgi ayısı kimi qalmışdın. Maşallah, indi arıxlayıb, kulturnulaşmısan.

Əsgərlik dostları qucaqlaşıb, bu dəfə üstü-başı unlu dəyirmançıya ağ günlərinin birini yaşatmışdı. Xaliddin qonağını aparanda dəyirmançı tərəfə də qanrılmalı olmuşdu:

– Axşam üst-başının ununu çırpıb, bir biz tərəfə gəl. Dost gəlişinin şadyanalığını bərabər eləyək.

Xaliddinin məclisinə sədr Nəsibin özü də buyurmuşdu. Dəyirmançı Mustafəli üst-başının ununu çırpıb gələnə, Xaliddin şişləri köz üstə düzənə kimi, mətləbinin şişini, kababını yandırmadan qonağı söhbətə tutmağa başlamışdı:

– Eşitdim, dəmirçiliyin var. Sənin kimisinin birini bu iki Əskipara göydə axtarır. Ürəyincə olsa, yerimiz də var. Bir zaman bir urus azıb gəlmişdi, dəmirçi kürəmiz ondan yadigardır. Batmışın, demə, ustalığı varmış, dəmirçiliyi yox. Kürəm əmələ gətirməyə gətirdi. Köşə salanda xamlığı üzə çıxdı. Əlini, kirpiyini yandırıb o qaçan oldu.

– Məndən olsa, canla-başla qalıb kürənizi körüklərəm. Amma özümün, necə deyərlər, bir az yelçəkənim var. Xaliddinə hər şeyi danışaram, o da sizə söyləyər. Məsləhət bilsəniz, qalar, Allahıma şükür, sizə də dua eləyə-eləyə hər iki kəndin işinə yarımağa çalışaram.

Səhərisi əsgərlik yoldaşı Xaliddinə başına gələnin altına daş-kəsək düzmədən, üstünə bərbəzək qoymadan necə var, elə danışdı. O da mətləbi bir az qurdalamalı oldu.

– Bəs kəndinizin ağzıpeçatlı bir ağsaqqalı yox idimi, yanına gedib hər şeyi olduğu kimi danışaydın. O da həmin məsələyə ağsaqqal möhürünü vurub, xitam verəydi.

Demə, Məhəmmədlə rəhmətlik Məmmədşah hər ikisi Əsmət adında bir qızı istəyirmiş. Əvvəl-əvvəl onun üstə qılınc-qalxana çıxdıqlarının bütün kənd şahidi olubmuş. Sonra qız seçimini Məhəmməd tərəfə eyləyəndə, Məmmədşah onunla barışmalı olmuşdu. Bu barışıqdan el-oba xəbər tutmamışdı, həmin bədbəxt hadisə baş vermişdi.

Xaliddin onun əlindən dəmirçiliyin gəlib-gəlmədiyini də öyrənmək istəmişdi.

– Ayə, bizim dərəmiz indiyə kimi dəmirçi sarıdan yarımayıb. Əsgərlikdə aşpazlıq eləyirdin, dəmirçiliyin hardan çıxdı?

– Nəsillikcə dəmirçi olmuşuq. Soldat paltarımı heç soyunmamış özümü dəmirçi atam Şıxkərimin böyrünə verdim. Neçə il tər axıdıb, halallığım aldım. Özününkünün böyründə bir kürə də mənimçün yaratdı. Axıra yaxın sənətin başını buraxmalı oldum.

– Elə niyə, dəmirçiliyin nəyi pisinə getdi?

– Əsmətdən oldu. Əmisi Axtı da Kənd Təsərrüfatı Texnikumunun müdiri idi. Orda oxumağımı istədi.

– Onda qorxusu yoxdu, ikicə gündə aqronomluğundan sıyrılıb, yenə dəmirçi baba olarsan. Səninki çətini körüyünü basana kimidi. Bir-iki günə əlini isidib dədən-baban kimi yenə dəmirçi baba olacaqsan.

Elə səhərisi Xaliddin baş-başa verib sədr Nəsibə əsgərlik dostunun başına gələnləri söylədi. Onun ağzının, dostunun bəxtinin açılmasını gözlədi. Nəsibin də sözləri obaşdanın dan yerinin qırmızısına çəkilməyə başladı.

– Səhər-səhər bu yazığın dərdi qanımı qaraltdı. Heç nədən yığvalı yava gəlibmiş. Amma Allah onu özü bizim kəndə çıdarlamaq istəyibmiş. Bundan sonra dartınıb hörüyünü qırsa da, bundan qırdı-qaçdı olmaz. Amma bir məsələ var, bu ləzgilər qızır ilan kimi bir şeydilər.

Kefi kökəlmiş Xaliddin bostan gözətçiləri Müsəllimin qarpızlarından bir-ikisini Nəsibin qoltuğuna verməyə hazırlaşdı.

– Bəs məsləhətin nədi, a başbilənimiz?

– Bunun adını, familini dəyişib əskiparalı eləməliyik, səninki o olacaq ki, onun tərs damarını kökləyəsən. Bu sünnü ləzgiləri çox vaxt xam at kimi yəhərləmək çətin olur.

– Tutalım, razılaşdı. Bəs kənd-kəsək...

– Sənin yadında olmaz, o vaxt ağzının seliyi axan zamanlarda, kəndin yetim-yesirindən beş-onunu Ceyrançöl yetimxanasına verdik, o traktorçu Usuf kimi qayıdanı oldu. Çoxunu hökumət Bakıya sənət məktəbinə göndərmişdi. Xəbər-ətərləri itdi, batdı. Kənd sovetinin dəftərində adları olmamış olmaz. Birinin adına bunun sənədlərini hazırladarıq. Kəndə də hay salarıq ki, şəhərdə azmış balalarından biri qayıdıb gəlib.

Xaliddinə bu dəfə Müsəllimin qarpızlarından lazım olmadı. Sözləri Alı bulağının suyu kimi ürəyinin gözündən süzüldü:

– Başın dədələr başıdı, mənim bu kal başım haqqı.

Xaliddin əsgərlik dostunu, Nəsib də Ceyrançölün sənəd verənlərini razı saldı. Bir neçə gündən sonra Məhəmməd Şıxkərim oğlu Qazıməhəmmədov dönüb Əskiparalı Meçəlin yurdda tək qalmış (ona görə də Ceyrançöl yetimxanasına verilmiş) oğlu Qədəmşah oldu. Və Əskiparaya da hay düşdü ki, Meçəl oğlu Qədəmşahı axır ki, şəhərdən doğma kəndləri çəkib gətirə bilib. O da öyrəndiyi sənətlə doğma şenliyinin işinə-gücünə yarayacaq.

Əskiparalılar həyatın dəmirçi kürəsində, onun istisi, soyuğu ilə bərkimiş bir yerlilərinin dəmirçi kimi ocağını qalayacağından məmnun qaldılar. Növbəylə onu qonaq çağırıb ayağı altda çəpişdən, toğludan kəsməyə başladılar.

Az müddətdə də dəmiri muma döndərən eloğlularının əlinin qızıllığının şahidi oldular.

Bir müddət sonra Xaliddin əskiparalı eyləyə bildiyi əsgər yoldaşının gələcək taleyiylə də məşğul olmağa başladı.

– Sənin bu şenliyə ayaqaçdın ən çörəkli, bərəkətli yerimiz, dəyirmanımızdan başlayıb. Necə deyərlər, çünki oldun dəyirmançı...

Sözünün arxasına gözünün müjdəverici parıltısını qoşmuşdu.

– Raz ki, dəyirmançı olduq, mətləbinin arxasını üyüt gəlsin.

– Biz su sonası kimi alyanaq, gülyanaq ayrım qızlarımızı heç bəyənib qonşu Abbasbəyli, Alpond, Çaylı tərəflərə də gəlin köçürmürük. Bu gün-sabah Əskipara toylarının qara zurnası işə düşəcək. Deyirəm, səni də böyrümdə əyləşdirim, toylarda gözaltı bizim su sonalarına baxasan. Bəlkə, onlardan da sənə quşu qonub alma atanı oldu. (Demə, ayrım toylarında belə bir adət də varmış. Ərlik qızlar bəyəndikləri subay oğlanlara alma atırmış.)

– Tutalım, mənə gülümsəyən qız tapıldı. Mən də ona almamı atdım, gəlini qaldığım quş damınamı gətirəcəyəm (Məhəmməd – Qədəmşah hələlik bir zamanlar qoruqçu Nəcəfin dəlləklik elədiyi balaca taxta evcikdə qalırdı. Ora qollarını büküb, güclə sığışırdı).

Sakitcə söylənmiş həmin kəlmələrin əks-sədası əlüstü sədr Nəsibə də çatdı.

– Başıma bir fikir Hərəm tərəfdən uçub qonub, bilmirəm, el-oba nə deyər. Çopur Usufla, Hasanla, Müsəllimlə ağız-ağıza verib gərnəşməli olacağıq.

– Dəmirçiyə bir koma tikməyə daşı, kərpici səhər-səhər bürüşüklərini güclə açan ağsaqqallarımızmı daşıyacaq?

– Yox, a batmış, hazır ocağa köçürmək istəyirəm. Hərəm üstdəki Cəfərin viran qalmış evinin işığını yandırmaq istəyirəm.

Cəfər müharibədə düşmən gülləsinə, atası Hasanağa, anası Salatın da onun güllədən betər dərdinə tuş gəlib o dünyalıq olmuşdu. Cəfərin gəlin gətirəcəyi Hərəm üstdəki ev də yavaş-yavaş kənd əhlinin gözündə bir nəslin həmin ev boyda məzar daşına dönmüşdü. Həmin mətləb Xaliddinə gedib gəlməyən Cəfər kimi kənd oğullarının müqəddəs sükutunu yaşadası oldu.

– Mənim başım belə kollara girən deyil. Bu məsələ bu gün-sabah katib stolunda əyləşə biləcək Nəsib qağalıqdır.

– Gənəşmək lazımdır. Gənəşilən don gen olar, söyləyiblər.

Kəndin ağsaqqalı, qarasaqqalı sədr Nəsibin təklifini bəyəndi. O da ağsaqqallarla bərabər, dəmirçi Qədəmşahı yanına salıb viran ocağa gətirdi. Qapı-pəncərəsinə vurulmuş çarpaz taxtalar bir nəslə çəkilmiş dağları yada salırdı. Burda da bir xeyli yaslanası oldular. Hamını qaramatından Nəsib çıxarası oldu:

– A Xaliddin, maşından montirovkanı gətirib qapının taxtalarını sök.

Qapı açılanda qabaqlarına fışqırıb bir ilan çıxdı. Belə bir qızıl lenti kəsib içəri girməyin müşküllüyünü hamısı başa düşdü. Bu çətinliyi üstələməkdə Müsəllim sinəsini qabağa verməli oldu:

– Ocaq ilanıdı, işiniz olmasın. Qədəmşahı özü içəri buraxmalıdı. Bizim dərədə ovsunçu da yoxdu, onu Ceyrançöl bazarına aparmaq lazımdı. Orda qaraçı Həsənin peşəsi Ceyrançöl uşaqlarını ovsunlamaqdı, Ceyrançöl bazarı yenə qaynar qazana dönmüşdü. Müharibə çətinliyinin ilan deşiyindən çıxa bilən camaatın ayağı yenə alış-verişinə açılmışdı. Bazar başında, Ceyrançöl qulluqçularının boynunun qalstuku kimi boğazının ilanı olmayan qaraçı Həsəni tapdılar (qaralığına görə adı qabağına həmin kəlmə qaramatını salmışdı). O da ilan dilindəmi, əjdaha ləhcəsindəmi bir-iki kəlməsini oxuyub Qədəmşahı ilan təhlükəsindən sığortaladı.

Geri döndükləri zaman bazardakı ilanın simarıcını "atmış" ocaq ilanı Qədəmşahı içəri buraxıb, öz dəliyində onunla qonşu yaşamağa razılığını verdi.

Qədəmşahın kiməsə alma atmağına ehtiyac qalmadı. Cəfər adlı kəndin bir nakam balasının işığını yandırmış oğlanı kənd qızlarından, – həm də gözəgəlimlilərindən bəyənən tapılmışdı. (Hərəm qənşərindəki, kəndin gözdağına bənzəyən evin qaramatı uçurulandan sonra yanan işıqdan hamıya pay düşə bilmişdi. Həmin nurdan ərlik qızlar da şöləsini almışdı.)

Əsgərlik dostu  Qədəmşahı muştuluqlayası oldu.

– Tüfəngsiz-zadsız durnanı gözündən vurmusan.

Dostunu intizarda saxlamayıb, şikarına keçdi:

– Sədrimizin qardaşı qızı o gün bir-iki zirzə sifariş verməyə yanına gəlibmiş. Bu dəfə həm də gözlərini körük kimi basa bilib ürəyinə od salmısan.

Həmin qızı yadına sala bildi. Əl saxlayıb arxasınca xeyli baxası olmuşdu. Ürəyindən keçirmişdi də: kaş yolunu bir də buralara salaydı. Bu dəfə qapı açmağa açar kimi bir şey sifariş verəydi. (Bəlkə, mənə də bəxt açılaydı).

– Bizim bağça müdirəsidir. İndiyə kimi bir cavana yan verməyib.

– Məni bəyəndiyini sən Xaliddin hardan bildin?

– Arvadım Suğra yanında işləmirmi? Ona deyirmiş ki, bu dəmirçimiz heç bizim cavanlara oxşamır. Ağır taxtalı, bişmiş cavandı.

...Ağır taxtalı oğlanın bəylik taxtı da quruldu. Qandaşı qızının toy babası Nəsib özü, oğlanın şah qardaşlığı Xaliddin oldu.

Tale Samur sahilində Əsmətindən ayırdığı oğlana Cağaz ətrafında Qərənfil kimi bir su sonası qismət elədi.

Keyf məclislərinin birində Xaliddin dostunun buludlanmış gözlərinin yol çəkdiyini gördü. Əvvəl əli, sonra da sözüylə qıdıxlamağa çalışdı.

– Bu nə mısmırıq sallamaqdı. Cıdırda kənd cavanlarını döşləyib ən gözəl qıza sahib olmusan.

– Eldən-obadan ayrılmaq elə də asan şey deyil. Özümdən asılı olmayaraq qəribsəyirəm. Sayəndə ev-eşik olmuşam, belə bir xoşbəxtlik yatsam, yuxuma da heç gəlməzdi. Amma həndəvərimə dəmirçi kürəmdən bir az böyük, bəlkə, Əskipara dərəsi boyda bir dairə çəkilib.

– Ayə, bundan sonra ora adamlarınız bir yana, heç dədən, cicin də Əskiparaya gəlib çıxa bilsə, səni bizimkilərdən ayıra, seçə bilməz, a Meçəl oğlu Qədəmşah.

– Hərdən ürəyim qubarlanır. Görəsən, günlərin bir günü oralara sarı, Sudura Çağdaşın qaşından kənardan da olsa baxa biləcəyəmmi?

– Elə baxacaqsan, istəsən, lap Müsəllim babanın durbinini də alıb verərəm, adamlarınızı yaxşı seçə bilməyin üçün.

Əskiparada, Meçəl oğlu Qədəmşah kimi, ətrafına çəkilmiş kürə içərisində ömrünü sürən doğma obasından, əsil-nəcabətindən uzaq düşmüş qəribin gözlərinin işığı iki balası dünyaya gəldi. İlkini, – qız balasının adını Əsmət, ikincisi, – oğul qırığınınkını Qismət qoydu. Qismətindən nə qədər razı olsa da, üzünü qoğma yerlərdən döndərə, oradakı ömrünü ilansayağı qabıq kimi qoya bilmədi. Hərdən özünü az-maz ona obalarını xatırladan Vətən bulağının (onların dərəsindəkinin adı Qazan bulağı idi) verib sevdiyi bir ləzgi mahnısını pəstən oxuyurdu.

İllər ötdükcə hazır məhsullar yolunu Əskiparaya da salıb Meçəl oğlunun dəmirçi kürəsini bağlatmışdı. Nəsib onu səriştəsinə inanıb aqronomluğa keçirmişdi (düzdü, bir müddətliyə kursa getməli olmuşdu.)

Hər Novruz Əsməti arpa, Qisməti buğda boyda böyüyə-böyüyə atalarını, özlərindən xəbərsiz içinə düşdüyü kürədən çıxarmağa başlayırdı. Əvvəlcə külfətiylə bərabər ayağı Ceyrançölün mərkəzinə açıldı. Rayon torpaq şöbəsinə müdir keçmiş Nəsib ərsəyə çatdırdığı Qədəmşahı yeni idarəsinə şöbə müdiri gətirdi. (Nəsibin yeni idarə maşınının sükanı arxasına da Xaliddin keçmişdi). Onların Ceyrançöl mərkəzində də işıqları yandı.

Əsmət orta məktəbi qızıl medalla bitirdi. Bakıya, Tibb Universitetinə qəbula hazırlaşdı. Dairəsini Bakıya qədər genişləndirməkdən çəkinən Qədəmşah uşağı arvadı ilə şəhərə yola salmaq istədi.

– Burdan mən yola salacağam. Vağzalda da o birisi əmin Fərhad qarşılayacaq.

– Başa düşmürəm, niyə qızımızı ürəkləndirmək istəmirsən. Ayağını qoysan, elə bilirsən ki, canavara, ayıya dönüb Bakı səni yeyəcək.

Və nəhayət, kürəsi Xəzər sahilindəki şəhərə kimi böyüdü. Şəhərə heyran olmuş qızının sözləri onun da ürəyindən xəbər verdi:

– Kaş Nəsib əmimi Bakıya irəli çəkəydilər, o da yenə bizə də gün ağlayıb buralı edəydi.

Bir il sonra da oğlu hüquq fakültəsinə qəbul oldu. Arvadı ilə məsləhətləşib uşaqlara ev tutası oldular.

Kürəsindən mərkəzə qədər çıxa bilməsi Qədəmşahı ürəkləndirdi. Üzünü, gəncliyini qoyub gəldiyi yerlərə doğru çevirdi. Mütləq o ətrafındakı kürəni yarıb çıxmalı idi. Yolunu doğma yerlərə salıb uzaqdan da olsa, oraları seyr etməli idi. Axı o, qəsdən ömür söndürməmişdi. Dostu Məmmədşahdan onun etdiyinin əvəzini çıxmaq istəmişdi. (Məmmədşah bir dəfə onu itələyib Samur çayına salmışdı. O da suyu süzülə-süzülə sözlərini də and kimi süzəsi olmuşdu.

– Borc olsun, mən də səni Samurda çimdirəcəyəm . Həm də suların şaxı sınan zamanlarda ki, dişin-dişinə dəysin.

Məmmədşahı çaya itələyəndə başının daşa dəyib, ömrünə son qoyacağını, onu ömürlük başıdaşlı edəcəyini bilməmişdi).

Qədəmşaha çevrilmiş, həmin ömrü boğanaq kimi yaşamış adam artıq dözə bilmirdi. Gözü qabağına düzəltdiyi kürəsindən çıxan əşyaları gətirirdi. Onların özünü də al-qırmızı boğanağından çıxarmaq üçün suya atırdı.

Hökmən o da özünü Samura yetirib, onun sularına atılmalı idi. Çünki yaşadığı illər də onu düşdüyü kürədə o ki var döyüb, qıpqırmızı Qədəmşaha çevirmişdi.

Sinəsini deşən arzusunu can sirdaşı Xaliddinə söyləmişdi. Bu fikir Xaliddinin ürəyincə olmamışdı.

– A qıvlasız, oralarda indi səni heç doğma dədən, nənən də tanımaz,burax başını.

– Yox, mütləq gedib ağırlığımı, uğurluğumu Samura töküb qayıdacağam.

...Qədəmşah Samur sahilinə yetişə bilmişdi. Həm də orda bir anlığa ləzgi Məhəmmədə çevrilməyi bacarmışdı da. Amma sonra.

Kaş özünü Samura başı üstə atmayaydı. Dostunu qurban verdiyi yerdə öz ömrünü də axıtmayaydı.

Nəsibə işçisi Qədəmşahın meyidinin Samur çayından çıxdığını xəbər verdilər. Xaliddinlə məsləhətləşdi:

– Nə deyirsən, Əskiparaya gətirib burdamı dəfn edək? Ya dədə-babasının böyürlərindəmi?

– Özü oraları istəyirdi. Dədəsi Şıxkərimin böyrünə çatmağa can atırdı.

...Sudur qəbiristanlığında, rəhmətlik Şıxkərimin qəbrinin böyründə bir məzar da doğuldu. Orda kürəsindən çıxıb soyumuş, Qədəmşahlığından ləzgi Məhəmmədliyinə qayıtmış bir adam əbədiyyətinə qovuşmuşdu.

Kənd adamı çox nadir halda bir ölümə sevinən kimi oldu. Bunu heç qara bayram da hesab eləmədilər. Obanın itkin bir övladı geri dönmüşdü. Bir həsrətli ata gorunda da olsa oğlu ilə qovuşa bilmişdi...

## ÇƏRÇİVƏ

Son günlər içinə düşdüyü dünya Sədulla üçün dairəliyindən (yəni kürə şəklindən) çıxıb da çərçivəyə çevrilmişdi. Həmin günlərdən də onun özünün həyatı çərçivə arasına düşmüşdü. Dolanışığı ucbatından həyat tərzini dəyişməsi həmin çərçivəni yaratmış, bu gün-sabah alimlik dərəcəsi almağa hazırlaşan Şərqşünaslıq İnstitutunun kiçik elmi işçisi Sədulla Əhədulla oğlunu öz dörd küncünün arasına salmışdı. Əslində, həmin çərçivənin memarını Sədullanın qonşusu molla Qaraxalı da hesab etmək olardı (dəliqanlı vaxtlarının xətalarına görə həbsxanaları özünə çərçivə ünvan eləmiş həmin yekəpər oğlan axırıncı həbsində Allahın yoluna gələ bilmişdi. Həmin yolu da ona kameralarına düşmüş bir din adamı göstərmişdi. Pullu mollalar yetişdirdiyinə görə həbsə düşmüş həmin adam vaxtını boş keçirməmək və vərdişini paslandırmamaq xatirinə yekəpər cavana ilahiyyat dərsi keçməyə başlamışdı. Hafizəsi çox yüklənməmiş yekəpər şagird də hafizinin söylədiklərini tezbazar hafizəsinə nəqş eləyib, mükafat kimi ondan öz molla adını da şifahi diplomvari qazanmışdı. Burnunun üstdəki klobya şəklində və lobya boyda xala görə müəllimi ona molla Qaraxal adı qoyub, söyləmişdi: Bu ad yaddaşlarda tez qalıb müştərilərini artıracaqdı.)

Qonşusu arıq, quru gəncin ərəb dili üzrə elmi işçi olduğunu biləndən sonra ona doğru ilk addımını molla Qaraxal atmışdı. Bilmədiyi mətləbləri izahlı şəkildə Sədulladan öyrənməyə çalışmışdı. Oğlanın maddi sıxıntılarının şahidi olduqdan sonra da təklifini eləməyi qərarlaşdırmışdı. Bunu Sədullanın kirayədə qaldığı evin sahibi, hamam ocaqçısının son sözləri də, bəlkə, sürətləndirmişdi. Həyətdə Sədullanı çənəsi altda salan adamın acıqlı sözlərini kirayənişinin başına carlanan bir tas qaynar hamam suyu hesab eləmişdi:

– Quru bəy, bu dəfə də kirayəni gecikdirsən, başını evimə soxa bilməyəcəksən. Arxana təpiyim dəyəcək.

Qaraxal əvvəl oğlana yardım eləmək fikrinə düşmüşdü. Sonra su tökməklə gəncin quyusunu sulu eləyə bilməyəcəyini anlayıb, təklifinin ağzını açmış, onu aydınlığa çıxarmağa çalışmışdı.

– Sənə bir məsləhət verəcəyəm, amma xətrinə dəyməsin.

Sədulla yaxşı tanımadığı bu adamın yonulmamış sözləriylə burnunun üstündəki qara xalı ürəyinə salacağından qorxmuşdu.

– Savadınla məni kimi oxumamış mollanın yüzünü cibinə qoya bilərsən. Sən də başla mollalığa, cibinə bir şey girsin, Allahın qaçeqarı da həftə səkkiz sənə girişməsin.

Həmin sözlər qarşısındakını qəbiristanlıq sükutuna qərq etmişdi. Bunu anladığından Qaraxal onu yasdan çıxarmağa hazırlaşmışdı.

– Dost-tanışın görməsin deyə, səni ətraf kəndlərin qəbiristanlığına apararam. İşin əvvəli çətin olur. Ayaqaçdını özüm eyləyib, bütün günü yanında olaram.

Həmin sözlər Sədullaya məşhur bir misalın əvvəli şəklində verilmişdi: adın nədir, Daşdəmir?

Xeyli düşünüb-daşındıqdan sonra Sədulla yumşalmış şəkildə Qaraxalın qarşısında dayanmışdı. O da elə həmin gün, libası üstdən xəcalət donu da geyinmiş qonşusunu Nardaran qəbiristanlığına gətirmişdi. Əlindəki kiçik çamadanı açıb molla libası geydirməyə hazırlaşmışdı.

Elə həmin gün Sədulla ilk müştərisiylə onun dünyasının son mənzili başında qara çərçivəsində görüşüb və vidalaşmışdı. Və həmin gündən dünya onun üçün dairəliyindən çıxıb çərçivəyə dönməyə başlamışdı. Molla Qaraxal xəcalət təriylə bütün bədəniylə vidalaşdığı mərhuma bir növ ağlayan gəncin özündən çox sözünə fikir vermişdi. Gözünün biri onda, biri də yas əhlində olmuşdu. Oğlanın təmkinli ahənginin müşayiətiylə ağıllı, məntiqli sözləri məclis əhlinin ürəyinə yol tapa bilmişdi. Məclisdə bəzi yaşlılar suallarıyla gənc mollanı imtahana çəkməli olmuşdu. Həmin sınaqdan üzüağ çıxan Sədullanın adını soruşanlar da tapılmışdı. Bu yerdə oğlanı tək buraxmayıb, sağında əyləşən Qaraxal sinəsini qabağa verməli olmuşdu.

– Molla Sədi...

Məclis sonrası, tərdən qabıq qoymuş Sədulla xeyirxahından soruşmalı olmuşdu:

– Adımı niyə yarımçıq dedin?

O da özünün türmədəki mollalıq müəlliminin sözlərini təkrar eləməli olmuşdu:

– Molla Sədi daha yaddaqalandı. Sənə xeyli müştəri qazandıra bilər.

Elə həmin gün növbəti müştərisinin də ünvanını alıb, növbəti qara çərçivəyə düşənlə vidasına hazırlaşmışdı.

Sədulla əslən Ceyrançöldən idi. Dünyanın girişinə qədəmlərini həmin mahalın Astanbəyli kəndindən basmışdı. Ömür yolunda üzü kəndlərindən az gedib – üz gedəndən sonra dünyanın çıxış nöqtəsi sayıla biləcək bir yerinə gəlib çatmışdı. Ehtiyac ucbatından gəlib çatdığı həmin yerdə insanları son kərə qara çərçivələrində görür, sonra da həmin çıxış qapılarından o birisi dünyalarına yola salırdı.

Astanbəylidə dünyaya gəlişinə (ömür ezamiyyəsinə) möhür vurulan Sədulla Ceyrançöl mahalının gözəl dərəsinin müqəddəs bir kəndində gözünün və özünün dilini aça bilmişdi (əvvəl-əvvəl ona görə gözünün ki, ətrafındakıları görməyə başlamışdı: anasını, atasını, inəklərini, itlərini, pişiklərini. Sonra dili açılmağa, onların adını söyləməyə başlamışdı: ana, ata, pişik)... Sonra yolu kənd bağçasına, məktəbinə düşmüş, əlləri qələmlə dəftərdə, təbaşirlə yazı taxtasında dil açmağa başlamışdı (bu da əvvəl gözüylə gördüklərinin, sonra diliylə söylədiklərinin adlarını yazmaqdan ibarət olmuşdu).

Sonra məktəbdə Cabbar adlı dost tapmış, birinci sinifdən onuncuya kimi bir partada oturmuşdular. Həmin köhlənlərini çapa-çapa da ilk təhsil illərinin mənzili başına çatıb attestat sahibi olmuşdular. Elə həmin il kəndlərinə gəlmiş bir alim onların hər ikisinin yeni dil açmasının səbəbkarı olmuşdu. Kəndlərindəki məzarlığın köhnə başdaşları üzərindəki yazıları oxuyub dəftərinə köçürən həmin adam ona maraqla baxan uşaqların heyrətini ətrafdakı alabaxtalar kimi uçurmağa çalışmışdı:

– Mən şərqşünasam. Kəndinizin məzar daşları üzərinə, məşhur şair, ocaq sahibi Seyid Nigarinin misraları nəqş olunub. Onları toplayıram.

Həmin adam da ömürlərinin astanasında olan gənclərin üzünü şərqşünaslıq fakültəsinə çevirməyi bacarmışdı.

Astanbəylidən xeyli aralıda dəmiryol vağzalı vardı. Bu həndəvərin uşaqlarının yolu ali məktəblərə həmin vağzaldan düşürdü. İmtahanlar yaxınlaşan zaman harda olursa-olsunlar, qulaqlarına həmin vağzalın sərnişin qatarlarının fiti gəlib çata bilirdi.

Demə, şərqşünaslıq fakültəsi hələm-hələm gəncin yemi deyilmiş. Elə ona görə də həmin qatarların çağırış fitiylə iki il səfərbər olub Sədulla və İbad kəndə üzüqara qayıdası olmuşdu. Ən axırda ikiillik əmək stajları hesabı istəklərinə çata bilmişdilər. Sədulla ərəb, İbad fars fakültəsinə daxil olmuşdu.

Sonuncu pillədə baxtları gətirmiş. Əla oxuduqlarına görə hər ikisini birillik dil təcrübəsi keçmək üçün ixtisaslarına uyğun ölkələrə göndərmişdilər. Sədullanı İraqın Kərbəlasına, İbadı Əfqanıstanın Cəlalabadına.

Həmin təyinatı İbadı həyatında kirayədə qaldığı falçı arvadın həm ev kirayəsindən, həm də evliliyi səmtinə cadu-pitisindən xilas eləmişdi. Falçı günlərin bir günü müştəriləri üçün dualarını ərəb əlifbası ilə yazdırdığı oğlana guya haqqını ödəmək istəmişdi.

– Şəhərdə irayonluların evlənənlərini saxlayıb iş verirlər. İstəsən, qızım Nazxanımla zaqsa gedib rayonların palçığından canını qurtararsan.

İbadın alnında dədə-baba yadigarı, iri, qara gənəvari bir xal vardı. Həmin xalı babasının atasına, onun da oğluna miras kimi verdiyini bütün kənd bilirdi. Həmin miras İbadın alnında şəklini dəyişib böyük gənəyə bənzəmişdi. Onu tanımayanlar oğlanın alnına gənə yapışdığını zənn edirdi.

Falçının niyyəti baş tutmayanda qızı tərəfdən hayfını qarğışlarının ağzını açmaqla başlayıb, oğlanın bəxtini bağlamağa çalışmışdı. Dənizdə, dalğalı gündə, az qala batanda onu son anda xilas etmişdilər. Keçirdiyi təşviş alnındakı gənəvari xalın bənzərini ürəyinə də salmışdı.

Xarici ölkələrdə təcrübəsini bitirən dostlar ağ və qara nailiyyətləriylə dönmüşdü. Müqəddəs Kərbəla ziyarəti sonrası Sədulla adının qarşısına “Kərbəlayi” rütbəsi də qondurmuşdu.

Əfqan mücahidlərlə çarpışmada tərcüməçi işləyən İbad da öz payını almışdı. Əsgərlərlə bərabər minaya düşmüş, güclü əsəb böhranı keçirmişdi. İlin bəzi aylarında oğlanın əsəbləri tüğyan edib, onu Maştağadakı əsəb xəstəxanasına salırdı. Oğlan da pul yığıb Almaniyada müalicə almaq istəyirdi. Həmin müalicə sonrası falçı qarğışı ilə alnından ürəyinə düşmüş gənədən xilas olmaq istəyirdi. Falçının qarğışının hələlik ikisinə tuş gəlib, iki dəfə, az qala ömrünü itirməli olmuşdu. (Arvadın cadularıyla bərkitdiyi qarğışlar belə başlayırdı: Səni görüm suda yanasan, odda alovlanasan.)

...Sədulla da, İbad da xaricdə təcrübə keçərkən boğazlarından kəsib, bir xeyli məbləğ qənaət edə bilmişdi. Həmin pulla da hər ikisi kooperativ mənzilə yazılmışdı. Tezliklə öz ocaqlarına daşınıb, öz işıqlarını yandıracaqları günü səbirsizliklə gözləyirdilər. Həftə sonlarında görüşüb şəhər kənarındakı gələcək ünvanlarına tamaşa etməyə gedirdilər. Sonra da binanın verdiyi qürur hesabına özlərini yaxınlıqdakı balaca, xudmani kafeyə verirdilər. Onları hər şənbə (və ya bazar) görməyə adət eləmiş kafenin bütün vəzifələrinin sahibi (həm müdiri, həm aşpazı, həm də xörəkpaylayanı) ürəyindən keçirirdi – qoşa alabaxta uçub gəlir. Onlar da hər dəfə kafeyə yaxınlaşanda ürəklərindən keçirdiklərini dillərinə gətirib yaddaşlarının tozunu silməyə çalışırdılar.

– Mənim Kərbəlayi olduğumu nəbadə, bir-iki badə sonrası dilindən qaçırasan...

– Sən də mənim kantujnı olmağımı.

Günlərin bir günü Sədullanın dostunun səhhəti barədə dilindən nəsə qaçırmağa ehtiyac olmamışdı. Bir iş yoldaşı ilə xeyli içdikdən sonra İbad falçının üçüncü qarğışına tuş gəlməyə başlamışdı. Elmi işinə kömək elədiyi, həmin hesaba ağ boğazını yaşladığı adama tikanlarını batırıb, onu səksəndirməyə başlamışdı.

– Müdafiəmə bir həftə qaldı, bunu da mənim sağlığıma içək.

Kömək elədiyi adamın İbadın böhranının bu dəfə tez başladığından xəbəri olmamışdı (bunu hər il birinci özü hiss eləyir, onun sağsağanlığı ilə də birinci dostu Sədulla xəbər tuturdu).

Oğlanın cavabından dostu bir şey anlamamışdı.

– Biri də artacaq.

Əvvəl nəyin birinin də artacağını soruşmaq istəməmişdi. Sonra həmin kəlmələri sağlığının tərifi tərəfə yozmuşdu (dostunun, – alimin biri də artacaq, – demək istədiyini fikirləşmişdi).

– De, de gəlsin, görək nəyin biri də artacaq?

Həmin an İbadın xəyalı Şıxlı ətrafında olmuşdu (hələlik Astanbəyliyə çatmamışdı). Gözü qabağına Şıxlı irəmələrindəki eşşəkləri gətirmişdi. Kaş həmin an dostu sualını bir də təkrar etməyəydi, o da ürəyindən keçirdiyini dilinə gətirməyəydi.

– Məmmədcəfər müəllimin Əliquluya dediyi sözlər yadıma düşdü.

Sağlıq iştahasına İbadın qarşısındakı adam kaş “tət” deyəydi. Onsuz da qarşısındakının dəyişməyə başlayan halından dalağı sancmışdı.

– Əliqulu qırmızı adamdı. Amma Məmmədcəfərə qızarıb-bozara bilməz.

– Vəzifəli bir adamın qızını müdafiəyə buraxdığı zaman üzünə ağ olmuşdu. Demişdi, professor, sizin bu qədər liberal olduğunuzu bilə bilməzdim. Bu nə...

– Məmmədcəfər müəllim nə demişdi?

– Qulu xalqımızın bir qismi neftçi ulaqdı, bir qismi də pambıqçı ulaq, qoy bir qismi də...

Bu dəfə gözü Şıxlıda olduğundan ulaq sözünü əvəzləmişdi.

– Qoy bir qismi də alim eşşək olsun.

Alimliyinə bir həftə qalmış adam bunu gözləmədiyindən içdən doğulmuş, üzdən boğulmuş əcaib səs çıxarmalı olmuşdu.

Demək, mənim simamda alim-eşşəyin birinin də artacağını söyləmək istəyirsən...

Hələ də İbadın üzr istəməsini gözləyib, xoşagəlməz söhbəti ört-basdır etməyə çalışırdı.

– Məntiqin düzəlib, düzgün nəticə çıxara bilirsən.

– Məndən borc aldığın onluğu qaytar.

Onluğu cibinə basıb, ağzından adı çəkilən heyvanın bir neçəsini çıxarmağa başladı.

– Bir eşşək sənin baban, birisi atan, o birisi də özünsən. Eşşəklər nəslinin sırası.

Bax burda artıq ağlı İbadı idarə etməyi bacarmadı. Süfrədəki şüşəni var gücüylə bir həftə sonrası alim olacaq adamın deyil, gözü önünə gətirdiyi Şıxlı eşşəyinin başına vurdu.

Həmin yerə iki maşın gəldi. Təcili yardım alqana qərq olanı xəstəxanaya, milis maşını İbadı təcridxanaya apardı.

Başına şüşə dəyən cavan ciddi beyin xəsarəti almışdı. İbadı ağır məsuliyyət gözləyirdi. İşlədikləri institutun direktoru, müharibə qəhrəmanının köməyiylə onu həbsxanaya deyil,dəlixanaya göndərdilər. Yenə də həmin adamın köməyiylə qapıya yaxın iki adamlıq palataya saldılar. (Dəlixananın bir tərəfində cinayət işlədənlər düşürdü ki, onların qapısı çox vaxt qıfıllı olur.)

İbadın otaq yoldaşı köhnə vəzifə sahiblərindən idi. Onu oğlanın elmi rəhbəri otağa sakin götürməsinə güclə razı salmışdı. Həmin adam da razılığını bütöv verməmişdi.

– Bir-iki gün o tərəf-bu tərəfindən özünə, biriki gün də içini oxumaq üçün sözünə, gözünə baxacağam.

Elə birinci gündə sınağına başlamışdı (həmin imtahanı zamanı da müstəntiqə, həkimə və xəstəyə dönə bilmişdi).

– Mən həqiqi xəstəyəm, yatdım, gərək səssəmir eşitməyəm. Vaxtsız oyandım ki, səhərə kimi gözümlə kotan əkməliyəm. De görüm, xoruldamağın, sayıqlamağın varmı?

– İkisindən də azadam.

– Bura hansı dəliliyinə görə düşmüsən?

– Əfqan veteranıyam. Sinirlərim orda pozulub. Özümü saxlaya bilməyib, birinin başına araq şüşəsi vurmuşam.

Bu sözlərə bir az hırıldayıb, əfqan veteranına bəraət vermişdi:

– Bunu düşmənlərin ayağına yazmaq olar. Mücahidlər döyə-döyə başını xarab eləyiblər.

Sonra içində mənfəəti gizlənmiş məsələyə keçmişdi:

– Özündən böyüklərə hörmətdə, qulluqda necəsən?

İbad başa düşmüşdü ki, onu özünün əlbuyruqçusuna çevirmək istəyir. Belə dar məkanda əziyyətli buyruq verə bilməyəcəyini düşünüb, onu xoşhallandırmağa çalışdı:

– Biz ceyrançöllülər özümüzdən böyüklərə qulluq eləyə-eləyə böyüyürük.

Vəzifə böyüklüyünü itirib bədən yekəliyini saxlamış adamın imtahanından yaxşı çıxmışdı. Üstəlik, onun rəğbətini də qazanmışdı. Ürəyindən keçirmişdi: bu quzubalanı gərək buranın canavarlarından qoruyam.

Dostunun başına gələnlər Sədulla üçün günəşli günlərdə qara buludların ildırımından betər olmuşdu. Həmin dar ayağında ondan köməyini əsirgəməməyə çalışmışdı. Elə ona görə də qonşusu molla Qaraxalın təkifiylə razılaşıb, rəhmətə gedənləri (qara çərçivəsinə düşənləri) dünyanın çıxışından yola salmağa başlamışdı. Və yola salasala da özünü də ətrafında hələlik rəngi qonura çalan çərçivə yaratmağa başlamışdı.

İbadsız içkini tərgidib kərbəlayılığını elan etmişdi. (Qaraxal onun həmin titulunu təsdiqləyən möhürlü şəhadətnaməsini görəndə heyrətlənmişdi). Az müddətdə Kərbəlayı Sədulla Nardaran camaatının və ətraf kəndlərin camaatının hörmətini qazanmağa başlamışdı. Adamlar ölülərini onun bələdçiliyi ilə o dünyalarına yola salmaq istəmişdi.

Sədulla ilə dostu arasında həmin dar məkana (dəlixana çərçivəsinə) düşdüyü gündən görünməz ünsiyyət telləri çəkilmişdi. O, dostunun sıxıldığını (az qala intihara qalxmaq istədiyini) həmin tellər vasitəsiylə hiss edir, boğçası və təskinliyi ilə özünü ona çatdırırdı.

Hər dəfə yol boyu özünün ağır düşüncələrinə də qərq olurdu: dünya cümlə ölümlü insanlar üçün çıxılmaz dairə imiş. Yaşadıqları məkanlardasa onların hamısı (lap varlıları da) öz çərçivələri içindəymiş. Hərənin öz soyuna, boyuna uyğun çərçivəsi varmış kimi insanlar da onun içinə sığışa və alışa bilirmiş.

Sədulla ən qorxulu çərçivədə olanları dostu İbad kimi dəlixanada (sonra da günahsızca həbsxanada) olanları hesab edirdi. Odur ki, nəyin bahasına olursa-olsun, onu ordan çıxarmağı qərarlaşdırırdı. Keçmiş vəzifə sahibi də İbada mehrini saldığından hər dəfə ondan rahatlıqla ayrılırdı.

Alnına qara gənə kimi yapışmış qara taleyi özünü İbada yetişdirmək üçün əvvəl onun yolu üstdən havadarlarını gömürdü. Kiminsə sifarişiylə institutlarının direktoru, müharibə qəhrəmanını qətlə yetirdilər. Havadarı keçmiş vəzifə sahibi növbəti gəzintisi zamanı yoxa çıxdı. Onun qaçıb canını qurtarması barədə zurna çalındı. (Bu da bir növ qara zurnanın müəmmalı, qara xəbərinə bənzəyirdi).

Ölkəsinə və onun əhalisinə nümunə bildiyi adamın başına gələnlər İbadı sarsıtdı. Onu Əfqanıstanın bir düzünə qaytarıb, yenidən minaya saldı. (Əslində İbad ömrünün boğanağı həmin gündən başlamışdı. Gözünü açanda dünyanın

alışıb-yandığını fikirləşmişdi). İbadın varlığını həmin xəbər özünün qoruyla doldurdu. Qollarını Tanrıya qaldırmağa da canında güc tapmayıb yanına saldı. İçindən keçirdikləri hələ tam sönməmiş bir ocağın qoruna bənzəyirdi:

– Deyəsən, boğanağımdan qurtara bilməyəcəyəm...

...Günlərin bir günü İbad yuxudan oyananda çarpayısında bir qadın gördü və dəhşətə gəldi. Həmin yaraşıqlı qadını gəzintiləri vaxt bir-iki dəfə dəlixananın bağçasında görmüşdü. Qadın özü onun simasında cin-şəyatin görmüş məsum gənci ovutmağa, soyutmağa çalışdı:

– Məni o timsaha oxşayan Saleh həkim dərmanla uyudub zorlayıb. Ondan hamilə qalmışam, hər şeyi sənin üstünə yıxmaq istəyirlər.

Oğlana xeyir etməkdən gözlərini kəlləsinə çıxardığını görüb təskinliyi ilə sir-sifətini sahmana salmağa çalışdı.

– Mən kişi qızı kimi söz verirəm ki, səni şərləməyəcəyəm. Hələlik nə sən, nə də mən üstünü vurmayaq. Yoxsa hər ikimizin axırına çıxarlar. Uşaq dünyaya gələndə atasının kim olduğunu söyləyəcəyəm.

Amma bu tamaşanın quruluşçuları da işlərini bilirmiş. Onlar otağına gəlin köçürəndən sonra İbadın müalicəsini tərsinə aparırmışlar. Oğlanı dəli azarına salıb üzü azdırmağa çalışırdılar.

Sədulla son günlər nə qədər çalışsa da, dostuyla görüşə bilmirdi. Yeri gəldikdə dəliləri döyən yekəpər gözətçi axırıncı dəfə döşündən vurub çıxarmışdı.

– Dostun aşnasıyla keyfindədi, kişi yengəsinə ehtiyacı yoxdu.

Sədulla hissiyyatının gözüylə dostunun başı üzərində dolaşan qara buludları görürdü. Onların qara ildırımının İbadın başında çatlayacağından ehtiyatlanırdı.

Axır ki, dünya dairəsinə bir tifilin düşmə günü yaxınlaşdı. Baş həkim bir tibb bacısı ayırıb iki xəstənin körpəsinin qaldıqları otaqda dünyaya gəlməsinə şərait yaratmışdı. Həmin gün İbadın sifarişiylə Sədulla da bir müstəntiqlə özünü ora yetirmişdi. İçəridə doğuşa görə onlar pəncərə önündə qalmışdı. Sədulla iynələr hesabı dostunun ağlının sovrulduğundan, yerinə hava vurulduğundan xəbərsiz idi.

Dəlixananın balaca bir otağında dünyaya böyük insan təşrif gətirirdi. Onun valideyn kimi böyüklərinin birinin, – anasının ağrı-acı dolu çığırtısı az qala tavanı deşib, ərşə yüksəlib dünyanın insanlıq ətrafına çəkdiyi dairəni yarmaq istəyirdi. O biri “valideyninin”, yəni atanın güldüyü, ya ağladığı bilinmirdi. Bu səs xaşılı arasından hərdən eyni kəlmələri ucalırdı.

– Uşaq çığırır, dartınır, görmürsüz, dünyaya gəlmək istəmir.

Müstəntiqə ananın izahatını almaq üçün səhər gəlməsini söylədilər. Səhərsə dünyaya təşrif gətirmiş uşağın ayağının ağır olduğunu söylədilər. Ana, çoxlu qan itirdiyindən ömrünü balasına bağışlamışdı. “Ata” dözməyib özünü asmışdı.

***

Sədulla son qara çərçivəyə dostunu salıb, vidalaşdı. Ordan şəhərin ucqarındakı kafeyə yolunu saldı. Bu dəfə həm müdir, həm aşpaz, həm də xörəkpaylayan ürəyindən “qoşa alabaxta” sözünü keçirmədi. Bir zamanlar Ceyrancöl bazarında xırdavat alveri eyləyən, içdiyinə görə yaşılbaş ayaması qazanmış İbrahimin bayatısını keçirdi:

Yaşıldı başın, ördək,
Qohum-qardaşın ördək.
Sən ki qoşa üzürdün,
Hanı yoldaşın ördək?..

## KÖKALTI

Rüstəməli, riyaziyyat müəllimləri Əlipaşanın sözünün məmmədqulusunu gec də olsa gerçəkliyi (çılpaqlığı) ilə başa düşmüşdü. Ayağı yeniyetmələrin təcridxanasına düşəndə Əlipaşa müəllimin tütün tüstüsünə bələnmiş sözlərini acı-acı uda bilmişdi.

Həmin sözləri həmin müəllim məktəbin buraxılış ilində onunculara xeyir-dua verilən zaman söyləmişdi. Direktor Dursun müəllim birinci dəfə bu qaradinməz adamı da dilləndirmək istəmişdi. O da ağzını açan kimi heç kəsin başa düşmədiyi sözlərini deyib dörd yanındakıları çaşbaş salmışdı:

– Həyatda çalışın kök altda düşməyin. Bəxtiqara Ramiz bala kimi...

Sonra da hönkürüb ordan çıxıb getmişdi.

Siqareti siqaretə calayan bu adamı dindirdiyindən Dursun müəllimin özü də peşman olub ürəyindən keçirmişdi: batmışın sözü də papirosunun tüstüsü kimi adamı boğmaqdan başqa bir şey deyil imiş. Mənə de ki, niyə onu alışdırıb uşaqları tüstü-dumana verirəm.

Əlipaşa müəllim Ceyrançölün ən kəllə riyaziyyatçısı hesab olunurdu. Əvvəllər rayon mərkəzinin bir nömrəli məktəbində dərs deyirmiş. Sonradan oralarda ailə həyatına görə təngnəfəs olduğundan özünü Əskipara dərəsinə vermişdi. Əvvəlcə savadına görə Əlipaşaya meyil salmış Gülara adlı bir qızdan zərbə almışdı. Nişanlısı idman müəlliminə qoşulub Sumqayıta qaçmış, yazıq Əlipaşanı həyatının kəsr xəttinin surətindən məxrəcinə yuvarlamışdı.

Sonra müəllimlər arasında yeganə ünsiyyət bağladığı Bəkir müəllim avtomobil qəzasında o dünyalıq olmuşdu. (Əlipaşanı bir tək Bəkir müəllimlə, Həsinin dükanında araq süfrəsində görə bilirdilər. Əslində sürücü Ağacan da badə yoldaşları idi ki, bir növ meyxanada sacayağına bənzəyirdilər. Həmin gün maarifə çağırıldığından Əlipaşa həmin məclisə təşrifini gətirməmişdi. Kefli Ağacan da maşınını Bəkir müəllimin ömrünün sonunda, özünün də türmə qapısının önündə saxlaya bilmişdi.)

Bəkir müəllimin oğlu Ramiz Əlipaşanın ən sevimli şagirdlərindən idi. Dəfələrlə özünü saxlaya bilməyib, uşağın atasına, anası qara Gövhərə də oğullarının böyük riyaziyyatçı olacağını söyləmişdi. Amma, necə deyərlər, riyaziyyatçı olmursan, kim olursan-ol, sən saydıqların deyil həyatınkı, acı da olsa gerçək olur. Bəkir müəllim ayağını külfətindən və dünyasından çəkəndən sonra ailəsinin başına müsibətlər gəlməyə başlamışdı. Əvvəlcə qızı Validə özünü zəhərləyib öldürmək istəmişdi. Həkimlər gözünün yaş, anası da sözünün daş yağışını aşa bilmişdi. Demə, oxuduğu Tibb texnikumunun müəllimlərindən biri qızın namusuna toxunmaq istəyibmiş. Bunu hamıdan sonra öyrənən Ramiz atası Bəkir müəllimin vəsiyyətindən kənara ayaq qoymalı olmuşdu. Halbuki atası, – dayısı Tapdıq kimi əlinə bıçaq yox, əmisi Zakir kimi qələm götürməyi oğlunun qulaqlarında sırğa kimi asıb getmişdi. Ramiz həmin müəllimi yaxalayıb, bıçaqlamışdı. İki maşın hadisə yerindən iki adamdan birini xəstəxanaya, o birisini milisə aparmışdı.

Ramizin türməlik olması Əlipaşanı sarsıtmışdı. Qazandığını türmə nəzarətçisinə töküb, uşağın pis yola düşməsinə əngəl olmalarını istəmişdi. Ailəyə nə cür havadar ola bilməsi üçün də həyat məsələsini özünəməxsus düsturlarla həll etməyə çalışmışdı. Axır ki, öz ağlına uyğun riyazi açarı tapa bilmişdi. Fikrini imkan tapıb əri öləndən tənbəki qoxusu verən Qara Gövhərə açmışdı:

– İstəyirəm ailənizə başçılıq edəm. Uşaqları adıma keçirəm.

Sözləri Qara Gövhər üçün ildırıma çevrilmiş, o da həmin təhlükəni onu yaradanın özünə tərəf ötürə bilmişdi.

– Bəkirlə içdiyin araqlar, çaxırlar burnunun iki deşiyindən gəlsin. Sən arı yeyib, namusu belinə bağlayan adamlardan imişsən.

İldırımın zərbəsindən Əlipaşa imkan tapıb qabaqcadan hazırladığı sözləri Gövhər arvada deyə bilməmişdi: bizim iki baş, dörd ayaq olmağımız lazım gəlməyəcək. Bu ailənin bir növ bostan qarovulçuluğuna bənzəyəcəyəm.

Amma Gövhər tərəfindən yediyi turşulu aş sonrası, ildırımın zərbəsi onu Ceyrançöl mərkəzindən Əskipara dərəsinə salmışdı. Yol boyu içindən keçirmişdi: Ramiz baladan heyif. Düşdüyü kök altdan çıxmağı onun üçün çətin olacaq.

...Rüstəməli təcridxanaya ayaq basan kimi Əlipaşa müəllimin siqaret tüstülü sözlərinin mənasını anlamışdı. Həm də həbsxana ilə bərabər, Əlipaşa müəllimin papiros tüstüsünə düşdüyünü də başa düşmüşdü. Bircə, həmin tüstüdən boğulacağından qorxub ürəyindən Əlipaşa müəllimlə görüşməyi keçirmişdi. Tale də həmin görüşə biçarəyə yuxusunda imkan vermişdi. O da ürək sözlərini gerçək hesab elədiyi həmin görüşdə söyləyə bilmişdi: Mümkünsə, mən burdan çıxana kimi tənbəki tüstülətməyin... Gözümdə əlimdən xəta çıxaran tüfəngə dönürsünüz. Elə bilirəm, onun tüstüsü çoxalır. Papiros tüstünüzə qarışıb, məni burda, dar ayağımda boğur. Sizin dediyiniz kök altına Ramizdən sonra mən düşmüşəm. Ondan çıxmağım üçün, siz ölənlərinizin goru, məni bu tülkü, çaqqal yuvasından da betər koğuşda tüstüylə boğmayın. Kökaltı...

Koğuşun dəmir qapısının zərblə döyülməsi tükürpədici səsiylə yuxusunu da kəsməli olmuşdu. Səksəkəli ayılmasının bəhəri gözlərinin iki-üç damla yaşı olmuşdu. Onlar yarımçıq sözlərinin ağırdan ağır üç nöqtəsinə çevrilmişdi. Nədənsə yadına babasının ovçu yoldaşlarının ən cavanını, – Qələndəri salmışdı. Yeniyetməliyindən, ayıbasan ovçu atasının yerini tutmaq üçün onların ovçu yoldaşlarına qoşulan, sonrakı illərdə qazancı biriki qurd-quşla bərabər, tənbəki çəkmək, araq içmək olan həmən Qələndər bir dəfə yolunu kefli-kefli onların evinə salmışdı:

– Dədənin tüfəngini ya mənə peşkəşlə, əvəzində ovumdan payını əskiltməyəcəyəm, ya da sat. Rəhmətlik özü də buna gorunda yanmaz.

– O tüfəng, o xalçanın üstdən əskik olmayacaq. Biri nənə, o biri baba yadigarıdı.

– Tüfəng həm də şeytan əməlidi, a südəmər bala. Sarı tükünü töküb, ağıllı davran. Günlərin bir günü dəli şeytan barmağınla başına bəla açar. Həm də şeytan ki işinə başladı, bəlasını üç kərədən az eləmir.

İndi olaqlarını araq qoxusuyla dolduran adama tüfəngi verməməyinə yanıb-yaxılırdı. Buralara düşüb barıt qoxulu tüstüylə boğulmazdı.

Rüstəməli ötən günlərinə hər boylananda tək bir nəfəri azadlıqda qoyub gəldiyi adamların içində görmək istəmirdi – Sənəmi.

Onlar onuncuya kimi məktəb pilləlğəriylə bərabər addımlamışdılar. Günlərin bir günündəsə bir yazın bənövşələri yeniyetmələri ilk məhəbbətin bəndinə salmışdı. Rüstəməliyə elə gəlirdi ki, Sənəmi yadına salsa, onu da bu dar qəfəsə salıb həbs elədəcək. Bir-birlərinə yaxınlaşdıqları Kar qaya ətrafındakı güllü-çiçəkli talanı həmişəlik duman basacaq və həmən yerlər kor dumanla gözsüz qalacaq.

Hər dərs ilini başa vurandan sonra məktəblilərin ayağı Ceyrançölün həmin tovuzquşu kimi gözəlliyi cilvələnən guşəsinə açılırdı. Bəlkə, müəllimlər özləri də uşaqları bir növ buranın gül-çiçəkləriylə mükafatlandırmaq istəyirdi. Səkkizinci sinfə kimi Rüstəməliylə Sənəm küsülülük saxlayırdı. Çəkişmələri də beşinci sinifdən başlamışdı. Buna da səbəb Rüstəmələnin oxuduğu bir mahnı olmuşdu. Həmin il Rüstəməlinin atasına Ceyrançölün mərkəzində qulluq vermişdilər. Onlar da Əskiparadan Ağköynəyə köçmüşdülər. (Həmin kəndlə Ceyrançölü aralarındakı tut bağı ayırırdı). Rüstəməli həmin il Sənəmlə göz-gözə gəlmişdi. Və həmin il də Sənəmə gizlicə vurulan uşaqların sayı bir nəfər də artmışdı. Sənəm başına güllü şal örtürdü. Üzünün qara xalı onun gözəlliyini bir az da artırırdı. Rüstəməli yeni sinfinə alışdıqdan sonra özünü Əskipara məktəbində hesab eləyib, sevimli mahnısını oxumuşdu. Həmin mahnıya qədər Sənəmin ancaq simasına gizli-gizli baxdığından başındakı şala, üzündəki xala çox elə fikir verməmişdi. Beşinci sinifdən (bəlkə də, bir az da əvvəldən) öz gözəlliyini hiss eləyən, oğlanların ona baxdığından zövq alan Sənəmi Rüstəməlinin mahnısı özündən çıxarmışdı:

Üzündə var xal bunun,
Başında var şal bunun,
Bir dəli şeytan deyir,
Dur qadasın al bunun.

Həmin özündən çıxmanın gücüylə Sənəmin çernil qabı Rüstəməli tərəfə tolazlanmışdı. Üst-başı çernillə boyanan oğlan özünü itirib qalmışdı. Çernil qabı atan qız oğlanın ona eşqnamə oxuduğunu başa düşmüşdü. Və onu bax beləcə düşdüyü bəndin, çernillə də olsa bənövşə rənginə boyamışdı.

Doqquzuncu sinfi bitirdiklərinə Kar qaya səyahətlərinə qədər küsülülükləri davam eləmişdi. Bunun Rüstəməliyə bir xeyri olmuşdu. Özünü Sənəmə göstərmək üçün dərslərinə var gücüylə hazırlaşmış, şəklini Sənəminki də olan məktəb əlaçılarının lövhəsinə vurdura bilmişdi.

Həmin səyahətləri zamanı tale onları Mərcan bulağı üstdə üz-üzə gətirdi. Rüstəməli Sənəmin gözəlliyi önündən pərəstiş korlarının ən məğlubu şəkildə geri çəkilmək istədi. Bu göylə gedən qız tərəfindən bu dəfə də daş-qalaq olmaq istəmirdi. Amma qızın səsi ona ayaq saxlatdı:

– Əskiparalılardan qorxaq tapılacağına inanmırdım.

Rüstəməli qızdan belə kəlmələr gözləmədiyindən həmin sözlərin bulağın mərcan dişlərindən qopduğunu düşündü. Üzünü Kar qayaya tutub, kar qalmaq istəmədi:

– Göz gördüyündən qorxar.

– Mahnını bir də oxusan, barışaram.

Həmin sözlər həm sahibini, həm də Rüstəməlini insan laləsinə döndərə bilmişdi. İllərlə həmin mahnı üstə onu dindirməyən qız həmin şərqiylə barışmaq istəyirdi. Rüstəməli mütləq həmin barışığı yaratmalı idi. İllərcə bütün varlığı ilə bunun həsrətini çəkmişdi. Üzünü Kar qayaya çevirib, oxumağa hazırlaşdı. Və həmin mahnı bu dəfə bir yeniyetmənin ilk məhəbbət çeşməsinə çevrilən ürəyindən süzülməyə başladı:

### ÜZÜNDƏ VAR XAL BUNUN...

Və oğlana elə gəldi ki, bu dəfə oxumur, illərcə gizli-gizli baxdığı qıza öz eşqini açır. Açdı və qızın cavabını həyəcanla gözləməyə başladı. O da irəli yeriyib cavabını həm əli, həm də diliylə verdi. Çeçələ barmağını oğlanınkına keçirdi:

– Bəsdi küsdük, alışdıq, barışdıq, barışdıq...

...Düşdüyü kökaltının tüstüsüylə nəfəsi boğulduğu günlərin birində dərdi üstə birini də yükləmək istəyən tapıldı. Bu, türmənin qoçusu sayılan

yeniyetmələrdən ən zodlusunun əlaltılarından idi.

– Ala süpürgəni, bu gündən tualetdən tutmuş, hər yanın təmizliyi ilə sən məşğul olacaqsan. Dalınca gələnin, pay-püş gətirənin yoxdu. Bizə boğazortağı olmusan. Heç olmasa işinlə haqqını ödə.

– Mən əlimə süpürgə almayacağam.

– Qulaqlarını dovşan qulağına döndərib məcbur edəcəyik.

Həmin adam sözlərinə əliylə qüvvə vermək istədi. Rüstəməlinin qulaqlarını çəkməyə hazırlaşdı. O da (bəlkə də, boğulmamaq üçün) yeganə çıxış yolunu əl-qolunu işə salmaqda gördü. Qarşısındakından zərbə gözləməyənsə süpürgəsiylə bərabər yerə sərələndi. Və tale təcridxanada Əlipaşa müəllimin iki sevimli şagirdini üz-üzə gətirdi (demə, yeniyetmələrin təcridxanasının qoçusu Ramiz imiş). Rüstəməliyə yaxşı qulaqburması verməyə hazırlaşan Ramiz onun sifətində bir suyuşirinlik, doğmalıq gördü. Elə ona görə də əlini yox, dilini işə salmalı oldu:

– Haralısan, ay tərs damarlı?

Rüstəməli də qarşısındakından rəğbət hiss elədi.

– Ceyrançöldənəm. Kök altda Rüstəməliyəm.

Bu kəlmələr Ramizi diksindirdi.

– Deyəsən, səninlə bir bulaqdan içənlərdənik. Əlipaşa müəllimin sözlərini hardan bilirsən?

– Əvvəl Əskiparada oxuyurdum. Riyaziyyatı bizə o deyirdi.

Ramizin sifəti Qazançı dağının başı üstə yağışqabağı buludlar kimi qapqara kəsildi. Həmin bir anlığa sanki görünməz bir şimşək işığında onun ürəyini Rüstəməliyə göstərə bildi. Bəlkə də, tale özü dostluğu baş tuta biləcək yeniyetmələrə bir anlığa da olsa ürəklərini göstərə bilirdi. İlk baxışdan zalıma bənzətdiyi Ramizin böyük və həlim ürəyi olduğunu yəqinləşdirib Rüstəməli rahatlaşdı. Başa düşdü ki, həyat bu dar macalda həmin yeniyetməni zalım rolu oynamağa məcbur etmişdi. Ramiz də öz növbəsində qarşısındakının Əskiparanın Coğaz çayı kimi bulaq saflığına bir anlığa tamaşa eləyə bildi.

Ramizin sözləri Rüstəməlinin ürəyini Qazançı dağına döndərdi:

– Biz ki Əlipaşa müəllimin kökaltda düşmüş balaları imişik. Gəl bir qardaşvari qucaqlaşıb bu bərk ayaqda bir az da bərkiməyə çalışaq.

Həmin an Rüstəməli onu boğan tüstüdən xilas ola bilmişdi. Allahına şükür edirdi ki, Əlipaşa müəllimi xilaskarı kimi yuxusuna, Ramizi də gerçək həyatına göndərmişdi. Yəqin ki, ona yazığı gəlib tüstüylə boğulmağa qoymayacaqdı. Rüstəməlinin ürəyindən keçirdiklərini Ramiz dilinə gətirəsi oldu:

– Bundan sonra tüstülənib, dumanlanıb eləmə. Özümü deyə bilmərəm, səni tezliklə kök altından çıxaracağam. Günü sabah bir yaxşı adamla tanış eləyəcəyəm.

...Demə, həmən, Ramizin insanların safı hesab elədiyi adam türmə məktəbinin dərs hissə müdiri Şəmiddin imiş.

– Məktəbinizə yazmışıq, sənədlərini göndərəcəklər. Sentyabrdan məktəbimizdə oxuyacaqsan. Ramiz kimi qardaşın var. Yəqin ki, dərs oxumağına şərait yaradacaq. Onun özü də kəllədi. İnanıram ki, ikiniz də məktəbi bitirib tələbə olacaqsınız.

Rüstəməlinin qiymətləri hamını mat qoymuşdu. Bircə mıktəb direktoru bir az dodaq büzüb qiymətləri əzməyə, büzməyə çalışırdı.

– Kənddə beşləri beş yumurtaya da çox vaxt yazdırırlar. Görək burda da onları təsdiqləyəcəkmi...

Az müddətdə Ramizlə Rüstəməli ürəklərinin döyüntülərini eşidə biləcəkləri qədər yaxınlaşdılar. Və başa düşdülər ki, özləri ilə bərabər, ilk məhəbbətləri də həbs olunub.

– Sənəmlə bir mahnı üstə küsdük də, barışdıq da...

– Sənəmi elə bil mən də tanıyıram. Ağköynəyin kolxoz sədri Usubovun qızı olmalıdı. Qardaşı Alıyla bir sinifdə oxuyurduq.

– Özüdü ki, var. Qardaşı riyaziyyat fakültəsində əlaçı oxuyur.

– Əlipaşa müəllimin sayəsində, atası Əlipaşa müəllimə görə oğlunu Ceyrançölün bir nömrəli məktəbinə qoymuşdu. Hərdən dərsdən sonra da onunla məşğul olurdu.

Ramizin pərtliyi sifətini qaraya çəkirdi. Bu dəfə də buludlaşandan sonra sözlərindən yağış ətri gətirdi:

– Bura düşməsəydi, Lələşin də oranın əlaçılarından ola bilərdi.

– Allah qoysa, yenə olacaqsan.

– Kök altdan çıxmaq növbəmi sənə verirəm. Ona görə də o beşlərini doğruldub türmə rəisinin dodağının büzməsini aç. Burda altıya, yeddiyə bilməlisən ki, beş ala biləsən.

– Sənin ümidsiz danışığın məni pərt eləyir.

– Bıçaqladığım adamın qohum-əqrəbasının çoxu prokurorluqda işləyir. Onlar məni dolaşdırıb müddətimi uzatmağa çalışırlar. Hələlik özümü qoruya bilirəm. Ramizəyə söz vermişəm ki, o,

orta məktəbi qurtarana kimi burdan çıxıb universitet tələbəsi olacağam.

Ramizə demə xalası qızı imiş. Adlarını da bir-birilərinə yaraşdırıb qoyublarmış.

– İnşallah, ikimiz də kök altdan çıxıb özümüzü işıqlı dünyada yenidən göstərəcəyik. Arxamızca dikilən gözlər səmtini dəyişməyibsə, güldürə biləcəyik.

– Mənimki məlumdu, sən hansı ixtisası seçəcəksən?

– Şərqşünas olmaq istəyirəm. Babam rəhmətlik molla məktəbi qurtardığından mənə köhnə əlifbanı, fars dilini öyrədə bilmişdi. Ərəb fakültəsinə daxil olmağı arzulayıram.

– Burdan çıxanları bəzi fakültələrə – tarixə, hüquqa çətin götürürlər. Yəqin ki, şərqşünaslığa əngəl yaratmazlar.

Rüstəməli zəkasıyla əvvəl müəllimlərin alnının qırışlarını ütülədi, sonra da rəisin dodağının büzməsini. Rəis özü onun başını sığallayıb dedi:

– Halal olsun sənə ata-ananın əməyi. Maarif Nazirliyinə yazmışıq, görək cəza çəkənlərin qızıl medal almasına icazə verəcəklərmi?

***

Rüstəməli ikinci dəfə türmə qapısını yarıb dünyaya gəldi. Və ikinci ömrünü arxasına boylanmadan (bir də boynubükük türmə həyatı yaşamadan) davam eləməyi qərarlaşdırdı. Ramiz qəsdinə duranlardan can qurtarmaq üçün Rusiya həbsxanalarının birinə dəyişdirilmişdi. Onsuz da həmin, Rüstəməli üçün kök altı sayılacaq məkanda arxaya çevrilib baxmaq üçün heç kəs qalmamışdı. Orta məktəbi bitirməyə bitirmişdi. Amma haqqında qızıl kəlmələr deməklə kifayətlənmişdilər.

– Bu uşaq eşikdə olsaydı, medalın ən yekəsi ona düşərdi.

– Heyif qızıl ömrü də ləkəli bir həyat başlayacaq.

Türmə əlaçılarına qızıl medal verməyi rəsmən qadağan edə bilməmişdilər. Ancaq bunu pis örnək hesab eləmişdilər. Türmə rəisinə mötəbər yerlərdən məsləhət vermişdilər: – Zəif yerini tapıb qiymətinin birini aşağı salın. Onsuz da medalsız da o bir yerə qəbul olacaq.

Rüstəməliyə rus dili fənnindən kafi qiymət verib qızıla çalan son ümidini də söndürmüşdülər.

Ayağı Ceyrançölə dəyəndə həyatının ən böyük zərbəsini aldı. Onun sevimli mahnısını da susdurmuşdular. Daha heç bir zaman dilinə gətirə bilməyəcəkdi. Çünki o cəza çəkdiyi dövrdə Sənəmin başına şalın əvəzi gəlinlik fatası qoyulmuşdu. Həmin fata da süd rəngli dumana dönüb xalını qərq eləmişdi. Qadasını da Ceyrançölə təyin olunmuş bir müstəntiq çəkəsi olmuşdu. Həmin oğlanı qıza bəyəndirənə kimi ata-anası Rüstəməlinin arxasınca öz qaramtıl kəlmələrini Oğuztayfa çayının qara daşları kimi atmalı olmuşdu:

– Onsuz da türmə damğası sonrası ondan çətin adam ola.

– Hələ deyilənə görə, orda cığanlara qoşulub.

Hümmət adlı müstəntiq Gəncənin kasıb ailələrinin övladlarından idi. Həmişə səliqəli geyinməyə üstünlük vermişdi. Tələbəlik illərindən boğazından kəsib pal-paltar görkəmiylə necə var, elə görünmək istəməmişdi. Müstəntiqliyə başlayandasa varlığını bir az da artıq bəzəməyə çalışmışdı. Sənəmin atası Hümməti evə qonaq çağıranda özünü bəy balasına döndərə bilmişdi (həmin günlər o, Ağköynək kəndinin mühasibatını yoxlayırdı). Qızın qarşısına yalnız və yalnız görkəmdən ibarət olan bir cavan çıxarmışdılar. Həmin görkəmdən də təcrübəsiz Sənəm onun içini görə bilməmişdi.

Mühasibatda aşkarladığı nöqsanlara görə sədri xoruza yükləməyə hazırlaşan müstəntiqin qazancı onun su sonasına bənzəyən qızı olmuşdu. Üstəlik, anası Sənəmin yaralı yerini də yağlı diliylə məlhəmləmişdi. İki il dalbadal Tibb universitetindən kəsilən qıza məlhəm həmin sözlər olmuşdu:

– Hümmətin dayısı tibbin professorlarındandı. Söz verir ki, səni oxudub, həkim edəcək.

...Rüstəməli Ceyrançöldə bir xeyli dolaşıb nə edəcəyini bilmədi. Ancaq və ancaq öz əcaib fikrini də hey ürəyindən keçirəsi oldu: Türmələrin qənşərində kaş bir ələkçi dükanı açaydılar. Ordan çıxanlar hərəsi bir ələk alıb, üzünə tutub el-obasına qayıdaydı.

Xeyli düşünüb-daşındıqdan sonra yolunu Əskiparaya salmağı qərarlaşdırdı. Əlipaşa müəllimlə görüşmək, kök altdan çıxmağı bacardığını nümayiş elətdirmək istəyirdi. Yol boyu ürəyindən keçirirdi: Kaş atasını Ceyrançölə dəyişməyəydilər. Əskiparanın hər evinin keşiyini bir dağdağan ağacı çəkir. Ata ocaqlarında ata-anasının başına həmin fəlakət çətin gələydi. O da Sənəmi (unuda bilmədiyi qızı) görməyəydi. Onu qurbağa edib, gölünə də daş atıb, ağzına su aldırmayaydılar. Üzü xallı, başı şallı qıza nəğməsini dodaqlarından korş ülgüclə ütməyəydilər.

Köhnə dəyirman səmtində alasəy Temiylə rastlaşdı. Türmə həyatı sonrası işinə Teminin yarayacağına sevindi.

– A Temi, bir-iki sualıma cavab verərsənmi?
– Üç manat versən, hə...
Talenin ağlından kəsdiyi tifildən əlini kəsmədi. Üstəlik, də bir onluq uzatdı.
– Kalana oxşayırsan, olmuya Tapdıq dayımın dükanını sən yarmısan. Birini də ver, kəndə car çəkməyim.
– Gedəndə verəcəyəm, indi de görüm, Əlipaşa müəllimi harda tapa bilərəm?
Temi əlindəki çomağı yaxındakı qəbiristanlığa tərəf uzatdı:
– Bax orda, qırxı da çıxıb, ili də, halvasından yeyə bilməmisən...
Temiyə bir onluq da verdi. O da fikrini dəyişib qabağındakı dəlinin pulu əlindən almasın deyə, qarşısındakı bircə özünün görə bildiyi qoyun-quzunu çomağının qabağına qatdı.
– Püş-püş, sən get Əlipaşanın goru tərəfə, qorxma, Hümbət dayımın canı haqqı, Tapdıq dayıya bir şey deməyəcəyəm.
Rüstəməli Əlipaşa müəllimin qəbrini tapdı. Üstünü ot-alaf basmış qəbri səliqəyə salmaq istədi. Əlini hara vurdusa, toz-duman qalxdı. Ona elə gəldi ki, Əlipaşa müəllim məzarında da tənbəki çəkməyə başladı. İşini yarımçıq qoydu. Başa düşdü ki, belə taleli adamın goru da pərişan olmalıdı. Bir xeyli susub yas saxladı. Həm də yeniyetmə yaşına kimi bütün itirdiklərinə. Sonra hayqırmağa başladı. Əlipaşa müəllimi ayağı altındakı torpağın dərin qatlarında olduğunu hesab edib səsini çatdırmaq istədi:
– Gözün aydın olsun, Rüstəməli kök altdan çıxıb. Bu gün-sabah Ramiz də çıxacaq...
Alt yolla Xoşkotana piyada gedən iki erməni ayaq saxladı.
– Bu nə səsdi, a Duraxon?
– Yəqin, qanlı Rəhimin goru üstə bayquş ulayır.
Əskiparada da qala bilmədi. Temi onluqları Tapdıq dayısına verib demişdi:
– Dükanını yaran qəbiristanlıqdadı. Get, tutub kəmərinlə dağını çıxar.
– Ayə, a şaşbatmış, dükanı yarıb-eləməyiblər. Bu Mastı batmışın uydurmasıdı. Toy olmayanda qara zurnasını yox, yalanlarını üfürür. Pulun qalsın, istədiyin vaxt gəl, qəletdən, xoşun gələn içi pavidlalı konfetdən xışma-xışma götür.
...Rüstəməli sənədlərini götürüb Bakıya yola düşdü. İşini şərqşünaslığın ərəb şöbəsinə verdi. Bəy balalarının rəqabətinə davam gətirmədi. Qiymətləri kəsildiyindən balı çatmadı. Yaxşı ki, ona məsləhət verən tapıldı. Bu, qiymətini kəsən müəllimlərin insaflısından idi.
– A bala, bu şöbə vəzifəli, pullu adamların balaları üçündü. Neçə il gəlsən də, balın çatmayacaq. Havayı yerə vaxtını itirmə.
Rüstəməli mövsümü işə gedənlərə qoşulub, yolunu Rusiyaya saldı. O, həm işləyib pul, həm də ünsiyyət saxlayıb rus dili qazanmaq fikrinə düşmüşdü.
...Düz iki il fəhləlikdən sonra Rüstəməli arzusuna doğru addımlarını atdı. Həmin müddətdə əllərini işə, başını rus dilini öyrənməyə sərf eləmişdi. (Dil öyrənmək qabiliyyəti pis olmayan cavan istəyinə nail ola bilmişdi).
Nə qədər özünə güvənsə də, qəbul komissiyasına həyəcanla, kəsilə-kəsilə yaxınlaşdı. Sənədlərini qəbul edən qızlar onu məsul katibin yanına göndərdilər.
– Şərq dillərinə qəbul olmaq istəyənlər müsahibədən keçməlidilər.
Məsul katib, – çeşməkli cavan özü tələbəyə oxşayırdı. Bu yerdə tale çaşbaş qalmış Rüstəməlinin köməyinə çatdı. İçəri özünü verən yaşlı qadın təşvişlə dilləndi:
– İrandan mübadiləmiz əsasında tələbələr gəlib. Onları əslində sabah gözləyirdik. Odur ki, tərcüməçi ehtiyatı görməmişik.
– Bir bələdçi qoşun, yataqxanaya aparsın. Sabah iranşünaslarımız özünü yetirər.
– Elə onu da başa sala bilmirik. Bəlkə, yanınıza gətirək, içərilərində, yəqin ki, Avropa dillərindən bilən tapılar.
– Gətirin görək, bunlar hazırlıq ilində rus dilini necə öyrənəcəklər?
Bu yerdə Rüstəməli özündə cəsarət tapıb dilləndi:
– İstəsəniz, mən sizə tərcüməçilik edərəm.
– Siz özünüz kimsiniz?
– Ərəb şöbəsinə sənəd vermək istəyirdim, yanınıza göndərdilər.
İrandan gələn cavanlar içəri doluşduğundan sorğu-sualları yarımçıq kəsildi.
– Yaxşı, onları başa sal ki, bugünlük yataqxanaya yerləşəcəklər. Sabah onlarla fars şöbəmizin əməkdaşları məşğul olacaq.
Rüstəməlinin fars dilində danışması çaş-baş gəncləri özünə gətirdi. Onun gənclərlə ünsiyyətindən məsul katib də xoşlandı:

– Əgər tərcüməçiliyə başladın, axıra kimi elə. Onları bizimkilərin biriylə aparıb yerləşdir. Komendanta da hər şeyi başa sal. Sonra yanıma gələrsən.

Onları çətinlikdən qurtarmış oğlanı məsul katib mehribanlıqla qarşıladı:

– Hazır farsşünassan, daha ərəbə girməyinə nə ehtiyac. Sənədlərini fars şöbəsinə ver, ərəbi də ikinci dil kimi öyrənərsən. Bu il təzə, mətnşünaslıq şöbəsi açmışıq. Yararsız hala düşmüş əlyazmaları bərpa etmək üçün Şərqşünaslıq İnstitutu üçün kadrlar hazırlayacağıq...

...Moskvanın Şərqşünaslıq İnstitutunda illər sonrası Rüstəməli adında bir mətnşünas çalışırdı. Namizədlik dissertasiyasını ikicə ildə müdafiə edib, doktorluğu üzərində işləyirdi. Həmin müddətdə ingilis, ərəb dillərinə də mükəmməl yiyələnmişdi. İllərin xəzanına düşüb nöqtələrini payız yarpaqları kimi tökmüş nə qədər əsəri bərpa eləmişdi. Bir mütəxəssis kimi çətinə düşən dostlarının da işinə yarayırdı. Hərdən rəğbət bəslədikləri oğlandan soruşanlar da olurdu:

– Başın sağdan sola başlayan əlyazmaların pozulmuş hərflərinə, nöqtələrinə qarışdığından başını qaldırıb sənə pərəstişlə baxan gözəlləri görmürsən. Evin də var, maşının da, qazancın da, niyə evlənmirsən?

Hamıya da cavabı eyni olurdu:

– Mən başında şal, üzündə xal olan bir qız axtarıram.

– Onda gərək iki ölkə gözəlini birdən alasan. Əsərini bərpa elədiyin Əmir Xosrov Pəhləvinin vətəni Hindistandan üzündə xalı olan qız, Əfqanıstandan başında şal olan gözəl alasan.

– Onda gərək vətəndaşlıqdan çıxam. Bizim ölkədə çoxarvadlılıq qadağandı.

Rüstəməli əlindən çıxan ikinci qəza sonrası ovçu Qələndərin sözlərini yadına salası oldu: – O tüfəng şeytanın barmağı ilə üç dəfə açılmalıdı...

Həmin hadisə doktorluq müdafiəsi sonrası baş vermişdi. Opponentlərindən birini hava limanına apararkən...

Maşının qabaq təkəri partlayıb rulu əlindən çıxarmış, səkidə bir qadını ölümcül yaralamışdı.

Partlayan təkərin səsi qulağına ötən illərindən gələsi olmuşdu. Həm də qoşalülə atəşi kimi. Rüstəməli elə bilmişdi ki, bu dəfə də əlində tüfəng açılıb, bir günahsız insanın ömrünə son qoymuşdu.

Şahidi məşhur alimin, iş yoldaşlarının köməyiylə həmin xatadan yüngül qurtara bildi. (Ölən qadının nüfuzlu qohum-əqrəbası ona ağır cəza verdirmək istəyirdi).

Üç il həbs cəzası alıb, yenidən kök altına düşdü. Həm də dimdiyinin çör-çöpüylə yuva qurduğu şəhərlə vidalaşmalı oldu.

– Daha bu şəhərdə yaşaya bilməzsən. Qadının adamları axırına çıxar. Kömək eləyəcəyik cəzanı öz ölkəndə çəkəcəksən. Çox elə həbsdə qalmayacaqsan. Direktorumuzun oranın böyüklərindən tanıdıqları var. Tapşıracaq, ikinci dəfə məhkəmə eləyib işini icbariyə çevirəcəklər.

Rüstəməli ikinci dəfə kök altda düşəndə tanımadığı kamera yoldaşları önündə tanışlığını mahnı ilə başladı:

Üzündə yox imiş xal onun,
Başında yox imiş şal onun,
Sənin özün də yox ikən,
Al görüm qadasını, al onun.

Kameradakılar təzə yoldaşlarının ariyasına öz münasibətlərini ağılları kəsdikləri şəkildə bildirdilər.

– Hərif özünü dəliliyə vurmaq istəyir...

– Bilmir ki, dəlixana həbsxana yanında toya gedəsidi...

...Rüstəməli yeniyetməliyi sonrası yetkinlik dövründə ikinci dəfə kök altına düşdü. Dostların köməyiylə onu Bakı türmələrinin birinə dəyişib, Moskva yolunu alabəzək şalbanla bağladılar. Mənzilini Bakıya dəyişməyinin də qayğısına qaldılar. Cibində dördotaqlı mənzilin açarı hələlik kameraya yerləşdi. Yuxarılardan tapşırıldığına görə türmə rəisi özü ona kamerasına qədər bələdçilik etdi. Qısa yolları boyu söhbətləşdi də...

– İnanmıram burda darıxasan. Kameranızı alimlər evi adlandırmaq olar. Çörək yoldaşların da institut müəllimləridi. Rüşvət üstə tutulublar. Səndən muğayat olmağı tapşırıblar. İnanıram ki, o cür adamlar səni burda çox saxlatmazlar.

Əlipaşa müəllim dünya ilə təhvil-təslimini başa vurduğundan ikinci kökaltında Rüstəməli tənbəki tüstüsündən boğulmurdu. Ondan ata yadigarı tüfəngi istəyən Qələndəri yadına salırdı: gərək onun araq qoxulu sözləri məni ayıldaydı. Tüfəngi xalçadan açıb ona verəydim. Görəsən, fəlakətin üçüncüsüdəmi bərəsində pusub yolumu gözləyir? Doğrudanmı, həyatım kökaltı üçün yaranıb? Babamın qanına qəltan etdiyi cüyürlərin günahını mənmi çəkməliyəm?

Rüstəməli bir zamanlar özünün Əlipaşa müəllimin tənbəkisinin tüstüsündən boğulduğunu hiss elədiyinə görə öz yeniyetmə sadəlövhlüyünə

gülümsədi. Yetkin yaşında ömrün boğanağını yaşadığını çılpaqlığı ilə anladı. Əlipaşa müəllim tənbəkisi ilə öz ömrünü yandırıb, tüstülətmişdi. O, sadəcə olaraq ömrü həbslərdə boğanaq payı kimi olanların həyatının riyazi formulasını söyləmişdi: kökaltı həyat...

Bir neçə gündən sonra Rüstəməlini rəisin otağına çağırdılar. Rəis onu muştuluqladı:

– Gözün aydın olsun, işinə yenidən baxılacaq. Üzümüzə gələn ay məhkəmən olacaq.

Fürsətçiliyi bütün varlığından yağan adam Rüstəməlidən də istifadəyə çalışdı.

– Mənim oğlumun da adı Rüstəməlidi. Şərqşünaslığa hazırlaşır. Adaşın da sizin ixtisası bəyənib.

– Rus dilini necə, bilirmi?

– Rusca təhsil alır, o nəyə gərəkdi?

– Mən Moskvadakı dostlara təqdim edə bilərəm.

– Anasının aman-zaman bircə balasıdı. Gözündən uzaqlara çətin buraxa...

– Buralarda tanış-bilişim yoxdu.

– Deyirəm, özünüz bir onu yoxlayaydınız. Məsləhətinizi verəydiniz.

– Məhkəməm uğurlu olsa, işim icbariyə çevrilsə, həm məsləhət verərəm, həm də köməkçi kitablar.

– İnşallah, hər ikimizin işi yoluna düşəcək.

...Nəhayət, yarımçıq da olsa Rüstəməli ikinci dəfə kök altdan çıxa bildi. Rəis ona qayğı göstərmək istədi.

– Qalmağa yerin yoxsa, hələlik bizim Bilgəhdəki bağda yerləşə bilərsən.

– Mənzilim var, düzdü, hələlik özüm də görməmişəm.

– Otur maşına, bərabər gedək. Yerini bilim, təyin elədiyin vaxt uşağı da gətirərəm.

Rüstəməlinin evini şəhərin mərkəzinə dəyişmişdilər. Köhnə ev sahibləri ər-arvad rəssamlar, evin əşyalarını, hərəsi bir əsərini də ona bağışlamışdılar.

Mənzil rəisin ağzını açıq qoydu. Bu adamla möhkəm ünsiyyət bağlamağı qərarlaşdırdı.

Rüstəməli adaşıyla tanış olub, tezcə də isinişdi. Və özünün yetim yeniyetməliyini yadına salıb, oğlana qibtə də etdi. Onun kök altda düşmək təhlükəsi yox idi. Yumurtadan yun qırxan atası kök altına bənzəyən həbsxanaların keşikçilərindən idi. Sinəsini qabağa verib oğlunu bəlalardan qurtarmağa hazır idi.

Rüstəməlini, demə, həyatının ən gərgin görüşü gözləyirmiş. Rəis onu evinə dəvət edirdi. Ataya nə qədər etiraz eləsə də, övladını sındıra bilmədi.

– Tanış ol, bu da adaşının anası Sənəm...

Onlar illər sonrası göz-gözə gəldi. Baxışların hər ikisindən Kar qaya ətrafındakı çiçəkləri sayrışan talanın ruzigarı əsdi. Həmin meh dimdiyində bir nəğməni də ərməğan kimi gətirmişdi. Və həmin iki adam üçün yaranmış mahnını da illər sonrası qəfil göz-gözə gələnlər eşidə bilirdi. Onlar bir-birini tanımamazlığa vurub, həyatın insafsız bir gərdişinin üstünü ört-basdır etməyə çalışdı.

Həmin gün Rüstəməli özünün, gecikmiş də olsa, ən böyük mükafatını aldı. Adaşı ona ailə albomlarını göstərirdi. Ən nəhayət, növbə anasının şagirdlik şəklinə çatdı.

Rüstəməli üzündə xal, başında şal ilk məhəbbətiylə albom səhifəsində görüşə bildi. Adaşı ona çay gətirməyə gedəndə həmin şəkli oğurlanmış məhəbbəti əvəzi çırpışdırmaqdan çəkinmədi. Bu ona hava-su kimi lazım idi. Düşdüyü kökaltı adı qazanmış ömür boğanağında onun üçün içi güllü, nəğməli talanın ətri ilə dolmuş oksigen balışına çevrilə bilərdi.

Albomda boş qalmış şəklin yerini Rüstəməli üçün çoxdan başının şalını, üzünün xalını itirmiş Sənəm gördü və həmin boş şəkil yerinə gözündən bir-iki inci tökdü.

...İcbari müddəti qurtaran kimi Rüstəməli yolunu Ceyrançölə salmağı qərarlaşdırdı. Artıq onun köksü üstə ilk məhəbbətinin nişanəsi olan şəkil vardı. Həmin şəkil onu boğanağından qurtara bilərdi. Odur ki, üçüncü dəfə kökaltda düşməmək üçün tədbirini görməyə hazırlaşdı.

Əvvəl-əvvəl əlində mələfəyə sarılmış tüfənglə bərabər yolunu ovçu Qələndərin evinə saldı. Zamanın tələsinə düşmüş kişini az qala tanımadı. O da ancaq deyinməyə yarayan sallaq dodaqlarını işə saldı:

– A bala, kimsiniz, dəqiqədə bir nəyə gəlib köhnə palan içi tökürsünüz...

Rüstəməlini onu rahat ölməyə qoymayan müstəntiqlərdən birinə oxşatmışdı.

– Axı yüz dəfə demişəm ki, Həmid mənim gülləmlə o dünyalıq olmayıb. Onun nəfəsini kəsənin özünün də nə vaxtdı canı çıxıb. Şofiq havaxtdı ayağını Ağköynək məzarlığında uzadıb. Ürəyiniz soyumursa, gedin qəbrinə istədiyiniz qədər iş kəsin.

– Bir dayan, məni də sözünlə güllələbaran eləmə. Mən Ceyran Əlinin nəvəsiyəm. Bir zamanlar gözün düşən tüfəngi sənə hədiyyə gətirmişəm.

– Gecikibsən, a bala, daha artıq arxamdan əldən qoyuram. Özümünküləri də təzə cükküldəyən ovçulara dəyər-dəyməzinə satmışam.

– Məndən peşkəşləmək, özün bilərsən, istərsən, atar, istərsən, satarsan.

...Sonra Ramizi axtarıb tapmağa getdi. Oğuztayfa çayı sahilində balaca yeməkxana açdığını eşitmişdi.

Boş masaların birinin arxasında oturub əziz adamının yaxınlaşmasını gözlədi. Zamanın öz fırçasıyla dəyişdiyi bir insan mənzərəsinə tamaşaya hazırlaşdı. Görüşünəsə Ramizin yeniyetməliyi gəldi.

– Hələ yeməklərimiz hazır deyil, ay dayı. Naştoylanmağın üçün pendirdən, qayğanaqdan təklif edərik.

– Sən Ramizin oğlu olmalısan, adın nədi? Atan hardadı?

– Rüstəməli. Qağam Bakıya gedib. Bu il riyaziyyat fakültəsinə qəbul olmuşam, mənə ev kirayələməyə gedib.

Ramiz oğlunu riyaziyyatçı edib, murazını gözündə qoymaq istəmirmiş. Kövrəlmiş Rüstəməli ondan ağlı bir şey kəsməyən yeniyetməyə sarıldı. Bağrına basdı.

– Mən sənin əmin olmalıyam. Yəqin, atan adın qoyulan Rüstəməlidən danışıb. Zəng elə, ev tutmasın. Mənimlə qalacaqsan...

...Sonra yolunu Kar qaya ətrafındakı talaya saldı. Dörd həndəvərində yeməkxanalar tikmişdilər. Müştərilər üçün araq boğanağı yaratmışdılar. Orda kabab tüstüsünə manqal boğanağına düşmək istəmədi. Qurtuluş yoluna bənzəyən cığırla dağdağan ağacına tərəf irəlilədi. Nəhayət, əl-ayaqdan uzaq bir guşədə boğanağından xilası rəmzi şəklə baxıb nəğməsini oxudu:

Üzündə var xal bunun,
Başında var şal bunun...